# Kəbəyə dönən evlərə doğru

*(Əvvəli ötən sayımızda)*

20 Yanvar xalqımızın hüzn günündə görməli olduğumuz işləri artıq axşamdan planlaşdırmışdıq. Belə ki, həmin gün Ağcabədidə və Ağdamda şəhid və qazi evlərini ziyarət etməli idim. Beləliklə, əvvəlki gündən aldığım ilhamla və böyük səbrsizliklə ilk dayanacağımız ünvana çatdıq. İlk nurlu dayanacağım Ağcabədi rayonunun Poladlı kəndində Ağcabədinin Vətən müharibəsindəilk şəhidi olan Əmrah Qaraş oğlu Mamedovun evi oldu. Şəhidimizinadına inşa edilmiş bulaqda olduq, nurlu siması təsvir edilmiş xatirə lövhəsinə əllərimizlə sığal çəkdik. Sonra şəhidimizin anadan olduğu, böyüyüb boya-başa çatdığı evin qapısını döydük. Şəhidimizin qardaşı Allahverdi və atası Qaraş əmi bizi çox səmimi və mehriban qarşıladı. Onlar bizi əvvəllər tanımamaqlarına rəğmən çox doğmalıq göstərdilər. Biz özümüzü təqdim etdik, mən şəhidlərimizin ruhu qarşısında öz mənəvi borcumdan danışdım və kitabımı şəhidin ailəsinə verdim. Şəhidin adının olduğu, haqqında yazdığım "Yurdun dayağı Əmrah"adlı şeirimi və açdığım Vikipediya səhifəsini kitabda Qaraş əmiyə göstərdim. O, şəhid oğlunun kitab səhifəsində qərar tutmuş şəkillərinə həsrətlə baxdı və doyunca onun üzərinə qabarlı əlləri ilə sığal çəkdi, öpdü, öpdü...Şəhidini bir anlıq sanki yanında imiş kimi hiss etdi. O, öz oğlundan, xalqımızın qəhrəmanından, ikinci Mübarizimizdən doya-doya ürək yanğısı ilə danışdı. Bu mənzərə olduqca təsirli idi.

Şəhid Əmrah Mamedov 20 may 1998-ci ildə Ağcabədi rayonunun Poladlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətini Sərhəd Qoşunlarında edib. Vətənimizin sərhədini canını sipər edərək qoruyub. O qədər nümunəvi xidmət edib ki, hələ sıravi əsgər kimi xidmət edərkən ona "kiçik çavuş" hərbi rütbəsi verilib.

Xidmətini bitirdikdən sonra ailənin dolanışacağını təmin etmək üçün bir neçə yerdə mülki işdə işləyib. O hətta RF-nin Dağıstan Respublikasında da işləyibmiş. Qaraş əminin dediklərindən: "O, oqədər doğru və düzgün, yalanı sevməyən bir uşaq idi ki... Dağıstanda bir dəfə onun maaşının veriləcəyini söz vermişdilər. İnanıb gözləmişdi. Ancaq əməyinin haqqını ala bilməmişdi. Ona bu yalanı danışanlara qarşı inciklik göstərərək nümayişkaranə bir şəkildə Dağıstandan çıxıb getmişdi. Düzgünlükdə, mərdlikdə, kişilikdə yaşıdları arasında elə ümumilikdə onun kimi az adam tapılardı."

Mülki fəaliyyətdən sonra əsgəri xidmətdə olduğu zaman qazandığı "kiçik çavuş" hərbi rütbəsiylə müddətdən artıq xidmətə başlayıb Əmrah. Qaraş əmi deyir ki, o, "Əmrah Poladlı" təxəllüsü ilə hətta bir çox şeirlər yazıb, bu sahədə qələmini sınayıb vəyazdığı şeirlərini toylarda, el şənliklərində çox həvəslə söyləyər, sosial şəbəkələrdə də paylaşardı. Onun şeirlərindən biri də Milli Qəhrəmanımız Mübariz İbrahimova həsr olunub. Əmrah özü də öz xahişi, istəyi və arzusu ilə Suqovuşanda, Mübarizin Mübarizlik etdiyi yerdə xidmət edib. O, Vətən müharibəsinin başladığı ilk gündə --27 sentyabr günündə Mübarizin şəhid olduğu yerdə şəhidliyə yüksələrək Ağcabədinin bu haqq savaşında ilk şəhidi olmağa haqq qazandı. Şəhidimiz Əmrah Mamedov şəhadətindən sonra "Vətən uğrunda", "Suqovuşanın" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Şəhid qardaşı-



mızın doğulub-böyüdüyü, boya-başa çatdığı evdə Onun adını daşıyan şirin bir körpə böyüyür, gündə bir arpa boyu boy atır Vətəni üçün. Allah adıyla böyütsün, yaşatsın! İnanırıq ki, Əmrah adına layiq bir qəhrəman olacaq balaca Əmrah.İnşəAllah!

Biz şəhidimizin qardaşı Allahverdi ilə xatirə şəkili çəkdirdik. Səmimi qarşıladıqları üçün onlara təşəkkürümüzü bildirdik,sonra şəhidimizin ocağı, ünvanı və onun ailə üzvləri ilə xudahafizləşib ayrıldıq. Növbəti gedəcəyimiz ünvan Ağdamın Baharlı qəsəbəsində rəhmətlik Novruz əmimin istəkli nəvəsi, qazimiz Rauf Qasımovun yaşadığı ev oldu. Ona həsr etdiyim "Zəfərə can fəda" adlı məqaləm də yeni kitabımda yer alıb.Hələ kitabda çıxana qədər həmin məqaləm redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri, eyni zamanda şagirdi, tələbəsi olduğum, ən çox hörmət bəslədiyim, vətənpərvərliyinə, səmimiliyinə, qayğıkeşliyinə, mənim kimi yeniyetmələrə kömək etməkdə tayı-bərabəri olmayan, ustadım Əli Rza müəllim Xələflinin əməyi, zəhməti nəticəsində yaşadılan, yaşayan "Kredo" məktəbi, "Kredo" Universiteti, "Kredo" qəzetinin bir neçə sayında dərc edilmişdi. Biz qazimiz və onun ailə üzvləri ilə bir doğma kimi görüşüb söhbət etdik. Qazimizin indiki vəziyyəti ilə maraqlandıq, ona yeni işində, müəllimlik fəaliyyətində uğurlar diləyərək onunla bağlı yazdığım məqaləmin də yer aldığı "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımı ona təqdim etdim. Onu da deyim ki o, indi Xocavənd, Kəlbəcər, Cəbrayıl və Füzuli fatehi kimi Ağdam rayon 94 nömrəli tam orta məktəbdə səfərbərlik və hərbi çağırış üzrə müəllim olaraq çalışır. Yeni işlərində və gələcək həyatında uğurlar olsun qəhrəman Qazimizə!

Növbəti şəhid ünvanımız Qarabağın Aran ağzı - ata vətənim Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi ilə qonşuluqda yerləşən Arazbar kəndi oldu. Əslində, ta qədimdən Arazbar-Qiyaməddinli bir ocaq olub, o kənd-bu kənd heç bir ayrı-seçkilik olmayıb. Bu elat obalarının xeyiri, şəri tarixən bir olub, elə bu gün də birdir. Mən də o torpağın nümayəndəsi kimi bu kəndləri, bu camaatı bir görmüşəm və bir görürəm. Arazbar kəndində 2 şəhid evinə, müqəddəs məkana baş çəkdik. Boğulan adamın havanı fasiləsiz, dəlicəsinə ciyərlərinə çəkdiyi kimi iki otaqda şəhid əşyalarının qoxusunu ciyərlərimizə çəkdik, bir anlıq onların Vətən müharibəsində keçdiyi yolları xəyalən səyahət etdik. Nəhayətdə yenə 2 nurlu ocağa daxil olub kitablarımızı oraya vermək şərəfinə nail olduq. Birinci dayanacağımız olan Daxili Qoşunların qəhrəman çavuşu, yenilməz xüsusi təyinatlı, düşmənə nifrət, elinə sevgisi ilə qəlbləri qazanan şəhidimiz Elsevər Piriyevin ocağında qonaqolduq. Əziz şəhidimizin atası Mahir əmi ilə görüşdük, onunla Elsevərin həyatı və döyüş yolu barədə bildikləri haqqında söhbətimiz oldu. İçində "Elini sevən Elsevər" məqaləsi olan 5-ci kitabımı Mahir əmiyə təqdim etdim. Orada kiçik bir çəkiliş oldu. O da Mahir əminin fikri idi. Mən eyni adlı məqaləni "Kredo" qəzetinə çap etdirib şəhidimizin ailəsinə çatdırmışdım. Yəqin ki, Siz oxucularım həmin məqalədən şəhid qəhrəmanımız Elsevər haqqında oxumusunuz və müəyyən məlumatınız var. Lakin mən yeni oxucularımı da Onun haqqında məlumatlandırmaq istəyirəm.

Şəhidimiz Elsevər Mahir oğlu Piriyev 12 iyun 1995-ci ildə Ağcabədi rayonunun Arazbar kəndində anadan olmuşdur. Əvvəlcə Arazbar kəndində orta təhsil alan Elsevər obyektiv səbəblərdən təhsilini yarımçıq saxlamış, təsərrüfat işlərində atası Mahir əmiyə 3 il kömək etdikdən sonra eksternat yolu ilə rayonun qonşu Kürdlər kəndində təhsilini davam etdirmiş, 9-11-ci sinifləri bir yerdə oxumuşdur. Sonra Silahlı Qüvvələrdə əsgər olaraq nümunəvi bir xidmət etmiş, xidmətini Daxili Qoşunlarda müddətdən artıq olaraq davam etdirmişdir. Əvvəlcə kiçik çavuş, sonra isə çavuş hərbi rütbəsi almışdır. Gəncə şəhərində-yerləşən "Pələng" dəstəsindən olan pələng kimi qardaşımız, əslində, Vətən



müharibəsində iştirak etməyə bilərdi. Lakin o, Vətən darda olanda kənarda qala bilməzdi. Elini, vətənini, xalqını canından çox sevən Elsevər məhz bu sevgisinə görə Vətən müharibəsində Kəlbəcər, Xocavənd, Hadrut, Cəbrayıl və Füzuli Fatehi oldu. Hadrut uğrunda, Qarabağın cənnət məkanı Şuşa uğrunda qızğın döyüşlər apararkən yaşadığı qısaca ömür payında qazandığı Cənnətinə uçdu. Şəhadətə ucalandan sonra uğrunda döyüşdüyü və canını fəda etdiyi vətən torpaqlarının medallarını aldı. İndi O, vətənimizin saysız-hesabsız xalq qəhrəmanlarından biridir, nə qədər ki Azərbaycan xalqı yaşayacaq, həmin qəhrəmanlarla birlikdə Elsevərimiz də qəhrəmantək xalqımızın qəlbində gənc qəhrəmanımız kimi əbədi yaşayacaq. Biz Qəhrəmanımızın şəhid olmamışdan əvvəl yatıb-durduğu otağında ona ayrılmış guşəni ziyarət etdik.Körpəliyindən başlamış şəhidliyinə qədər şəkillərinin seyrinə durduq və fikirləşdik ki, Elsevər elə cənnətə layiq olaraq dünyaya gəlibmiş.Ona görə uca Allah onu tez öz dərgahına aparmışdır.

Mahir əmi ilə də xatirə şəkli çəkdirdikdən sonra onunla birgə şəhid Elsevər Piriyev küçəsindən çıxıb gəldik yanındakı şəhid Ceyhun Hüseynov küçəsinə. Bir kəndin iki gənci, bir yurdun iki igidi, bir elin iki vətən sevdalısından birinin də evində olduq. Onun nurlu ocağına kitabımı təqdim etdim. Kitabda yer almış, şəhidimiz Ceyhun Hüseynova həsr etdiyim "Cənnətin ərməğanı" şeirini şəhidimizin ailə üzvlərinə göstərdim. Şəhidimizin anası, əslən Yuxarı Qiyaməddinli kəndindən olan Şəhla anaya minnətdarlığımı bildirdim. O, qəhrəman oğluyla bağlı xeyli maraqlı söhbət etdi. Şəhla ananın dediyi hər söz adama bir ağı kimi gəlirdi. Hər sözün yarısında bir ürək dağı,ürək yanğısı, digər yarısında isə bir təskinlik, bir məğrurluq var idi. Əlbəttə, Şəhla xanım Azərbaycan türkünün şəhid anası idi. O, məğrur olmalı idi və şəhid abidəsi kimi də öz məğrurluğunu göstərdi. Ümumiyyətlə, ziyarət etdiyimiz hər evdə, hər şəhid qoxulu müqəddəs ocaqda bu fərqli auranı hiss etmək, görmək olurdu. Adi evdən fərqli olaraq şəhid evində, şəhid otağında hər şey elə şəhid evi kimi də fərqli olur. Anası onu xəyalında canlandıranda, fikir edəndə, onun şəklinə baxanda elə ürəkdən oflayırdı ki, elə bil ürəyimizə dağ çəkirdi. Hər halda, dediyim kimi, onun ürəyinin acısının, ağrısının sonunda bir qürur, təskinlik, mərdlik, mətanət, dözümlülük var idi. Çünki onun oğlu Aprel döyüşlərinin də, Vətən müharibəsinin də Qəhrəmanıdır və bu igidi O, bətnində yetişdiribdünyamıza bəxş etmişdir... Onun bu dünyada ən ali rütbəsi budur: "Vətənimin Qəhrəman oğlunun Qəhrəman Anası"...

Şəhla ananın dediklərindən şəhidimiz haqqında məlum olan məlumatlara bunları əlavə edə bilərəm:Şəhid Ceyhun Möhübbət oğlu Hüseynov 5 oktyabr 1991-ci ildə Ağcabədi rayonunun Arazbar kəndində anadan olmuşdur. Əslində, qeyri-rəsmi ad günü 27 sentyabr tarixinə düşür. Orta təhsil aldıqdan sonra 2009-cu ildə müddətli həqiqi hərbi xidmətəgetmişdir. Evində onun ilk xidməti ilə bağlı bir neçə kaset də var. 2014-cü ilin martında top komandiri və güclü artilleriyaçı kimi xidmətinə davam etmiş, 2016-cı ilin aprelində başlayıb bitən Zəfərimizdə onun böyük rolu olmuşdur. O, Aprel döyüşlərində dörd topdan 27 atəş açaraq ana yurdu olan Yuxarı Qiyaməddinli kəndinə düşmən ayağının basılmasına imkan verməmişdir. Bu şücaətinin əvəzində isə ona rəhbərlik tərəfindən mükafat olaraq suvenir qılınc hədiyyə edilmişdir. Sonuna qədər xidmətini həmin hərbi hissədə davam etdirən igidimiz 2020-ci ildə qeyri-rəsmi ad günündə başlayan haqq savaşımızda da öz yerində, söz, əməl yerində, səngərdə olub. Aprel döyüşlərindəki şücaətini yenə həmin yerdə təkrar edib. Ananın əlində olan şəkillər Ceyhunun, demək olar ki, şəhadətindən 3-4 gün əvvəl çəkilib. Ceyhun 16 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Nərgiztəpə-Kuropatkino - Muğanlı əraziləri istiqamətində döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır. Şəhadətindən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Allah qəhrəman şəhidimizə rəhmət eləsin!Amin!Sözsüz ki, məkanı cənnətdir.

Sonda, şəhid evindən, otağından xatirə kimi bir neçə şəkil çəkdik, Şəhla anaya minnətdarlığımızı bildirdik, səbir arzuladıq və yolumuza davam etdik.

***(Davamı var)***

***Sevindik NƏSİBOĞLU,***
***8-ci sinif şagirdi, şair-publisist,***
***AJB-nin üzvü***
***22.01.2022***